# Münaqişə beynəlxalq hüququn norma və prinsipləri, eləcə də BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq həll edilməlidir

Xarici işlər naziri Elmar Məmmədyarov BMT Baş Məclisinin 72-ci sessiyası çərçivəsində ATƏT-in baş katibi Tomas Qreminger ilə də görüşüb. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Görüşdə Azərbaycanla ATƏT arasında əlaqələrin hazırkı səviyyəsi nəzərdən keçirilib və əməkdaşlıq məsələləri müzakirə edilib. Tərəflər Azərbaycanla ATƏT arasında konstruktiv dialoq və anlaşma ruhunda əlaqələrin genişləndirilməsinin vacibliyini vurğulayıblar.

Nazir Elmar Məmmədyarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və münaqişənin həlli üzrə danışıqlar prosesinin son statusu barədə ətraflı məlumat verib. O, ATƏT-in Minsk qrupunun həmsədrləri və bütün beynəlxalq ictimaiyyətin mövcud status-kvonun qəbuledilməz və qeyri-davamlı olması faktını qəbul etdiyini deyərək, münaqişənin həllində irəliləyişə nail olmaq üçün Ermənistan silahlı qüvvələrinin işğal olunmuş bütün Azərbaycan ərazilərindən çıxarılmalı olduğunu bildirib. Elmar Məmmədyarov güc tətbiq edərək dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin dəyişdirilməsi cəhdlərinin qəbuledilməz olduğunu vurğulayıb. Nazir həmçinin münaqişənin beynəlxalq hüququn norma və prinsipləri, eləcə də BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı əsasında həll edilməli olduğunu bir daha bəyan edib.

Görüşdə tərəflər ATƏT-in gündəliyində duran məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

* * *

Xarici işlər naziri Elmar Məmmədyarov BMT Baş Məclisinin 72-ci sessiyası çərçivəsində Belçikanın xarici işlər naziri Didye Reynders və Malayziyanın xarici işlər naziri Dato' Sri Anifah Aman ilə ikitərəfli görüşlər keçirib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, görüşlərdə müvafiq olaraq ölkələr arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafı qeyd olunub. Mədəniyyət, turizm, nəqliyyat, kənd təsərrüfatı və humanitar sahələrdə əməkdaşlıq üçün əlverişli imkanların mövcudluğu vurğulanıb.

Görüşdə beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunub və BMT Baş Məclisinin 72-ci sessiyasının gündəliyində duran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov BMT Baş Məclisinin 72-ci sessiyası çərçivəsində Fələstinin xarici işlər naziri Riyad Əl-Məliki ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, görüşdə Azərbaycan və Fələstin arasında əlaqələrin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb. Azərbaycanın Fələstin məsələsinə diqqəti və humanitar dəstəyi, Azərbaycanda beynəlxalq təşkilatların Fələstin məsələsi üzrə keçirilən beynəlxalq tədbirlər yüksək qiymətləndirilib.

Nazirlər Yaxın Şərqdə mövcud vəziyyət, BMT Baş Məclisinin 72-ci sessiyasının gündəliyində duran məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

* * *

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov BMT Baş Məclisinin 72-ci sessiyası çərçivəsində ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popov (Rusiya), Stefan Viskonti (Fransa) və Əndrü Sxofer (ABŞ) ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik də iştirak edib.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesi və gündəlikdə duran məsələlər ətrafında müzakirələr aparılıb.

Nazir Elmar Məmmədyarov münaqişənin həlli üzrə Azərbaycanın mövqeyini bir daha diqqətə çatdırıb.

* * *

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov BMT Baş Məclisinin 72-ci sessiyası çərçivəsində Vanuatu Respublikasının xarici əlaqələr, beynəlxalq əməkdaşlıq və xarici ticarət naziri Bruno Leingkone ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə Azərbaycan və Vanuatu arasında diplomatik münasibətlərin qurulmasına dair birgə kommunike imzalanıb. Bruno Leingkone Azərbaycanın Vanuatu ilə sözügedən kommunikeni imzalayan 104-cü ölkə olduğunu qeyd edib.

Daha sonra iki ölkənin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və seçkili orqanlarda qarşılıqlı dəstək məsələlərinə toxunulub.

Görüşdə tərəflər arasında BMT Baş Məclisinin 72-ci sessiyasının gündəliyində duran aktual məsələlər də müzakirə olunub.

* * *

Azərbaycan mədəniyyətlər və dinlərarası dialoqun bütün səviyyələrdə təşviq edilməsinə böyük önəm verir. Multikulturalizm və tolerantlıq ölkəmizdə cəmiyyətimizi gücləndirən və birləşdirən uzunmüddətli ənənədir. Əsrlər boyu müxtəlif millətlər və dinlərə mənsub insanlar Azərbaycanda sülh içərisində və ləyaqətlə yaşayıblar. 2016-cı il Azərbaycan Prezidenti tərəfindən ölkəmizdə "Multikulturalizm ili" elan edilmişdi. Nəticədə, milli və beynəlxalq səviyyədə multikulturalizmin bəşəri ideallarını qoruyub saxlamaq və yaymaq tədbirlərini nəzərdə tutan xüsusi Fəaliyyət Planı hazırlandı.

Bu sözləri Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov BMT Baş Assambleyasının 72-ci sessiyası çərçivəsində BMT-nin Sivilizasiyalar Alyansının Dostlar Qrupu nazirlərinin görüşündə çıxışı zamanı deyib.

"Sülh və təhlükəsizliyin təhsil, elm, mədəniyyət və dialoq vasitəsilə, xüsusilə gənclər arasında əldə edilə biləcəyinə inanan bir ölkə kimi Azərbaycan 2014-cü il oktyabrın 28-30-da BMT Baş katibinin Gənclər, BMT-nin İnkişaf Proqramı, UNESCO və Avropa Şurası üzrə elçisi ilə birgə təşkil olunmuş Bakı Gənclər siyasəti üzrə I Qlobal Forumu kimi mədəniyyətlər və sivilizasiyalar dialoqunu təşviq edən tədbirlərin mərkəzinə çevrilib", - deyən E.Məmmədyarov bildirib ki, forumun 700 iştirakçısının dövlətin gənclərə dair siyasətinin müxtəlif aspektlərini müzakirə etmək və 2015-ci ildən sonrakı inkişaf dövrü ərzində gənclərin tələbatlarına düzgün ünvanlanan daha adekvat siyasətləri formalaşdırmaq üçün yol və strategiyaları nəzərdən keçirmək imkanı oldu.

"Ötən il aprelin 25-27-də Azərbaycan BMT Sivilizasiyalar Alyansının "İnklüziv cəmiyyətlərdə birgəyaşayış" mövzusuna həsr olunmuş VII Qlobal Forumuna evsahibliyi edib. Bu mühüm tədbirə dövlət və hökumət başçıları, nazirlər, dövlət rəsmiləri, media və beynəlxalq təşkilatların nümayəndələri də daxil olmaqla 147 ölkədən 4 mindən artıq iştirakçı qatıldı. Forumun mövzuları davamlı inkişaf üçün inklüziv cəmiyyətlərin əsas komponent kimi təşviq edilməsinin də daxil olduğu "Davamlı İnkişaf üzrə 2030 Gündəliyi"ni özündə əks etdirib. Fürsətdən istifadə edərək mən adıçəkilən forumun təşkilatçı və iştirakçılarına təşəkkür etmək istərdim", - deyə Azərbaycanın xarici işlər naziri bildirib.

Qeyd edilib ki, forumun əsas nəticəsi Bakı Bəyannaməsi oldu. Bu bəyannamə ayrı-seçkiliyə, düşmənçiliyə və zorakılığa rəvac verən dini nifrətə istənilən dəstəyi kəskin şəkildə qınadı və üzv dövlətləri zorakı ekstremizmin bütün forma və təzahürlərinə qarşı birləşməyə çağırdı. Bakı Bəyannaməsi dövlətlər və beynəlxalq təşkilatlar üçün beynəlxalq dialoq və multikulturalizmin zorakılıq, ekstremizm və ksenofobiyaya qarşı mübarizə vasitəsi kimi təşviqində əsas rəhbər prinsipə çevrilməlidir. İnklüziv cəmiyyətlərin yaradılması və inkişafında gənclərin xüsusi rolunu qəbul edərək forum çərçivəsində 150-dən artıq gəncin iştirak etdiyi BMT Sivilizasiyalar Alyansının Gənclər Tədbiri də keçirildi.

"Bundan əlavə, bu il biz yüksək səviyyəli qonaqların, xüsusilə hökumət başçılarının, nazirlərin, müxtəlif beynəlxalq təşkilatların nümayəndələrinin iştirak etdiyi bəşəriyyətin marağına xidmət edən çoxsaylı qlobal məsələlərə dair panellərdən ibarət IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna evsahibliyi etdik. Tədbirin əsas sessiyalarından biri "Gənclərin təhsil vasitəsilə zorakı ekstremizmin qarşısını almaq üçün maarifləndirilməsi" mövzusuna həsr edilmişdi", - deyə E.Məmmədyarov diqqətə çatdırıb.